**Dövlət Statistika Komitəsində Minilliyin inkişaf məqsədləri üçün metaməlumatların təqdm edilməsinə dair seminar keçirilmişdir**



2013-cü ilin 2 iyul tarixində Dövlət Statistika Komitəsində BMT-nin İnkişaf Hesabları (UNDA) tərəfindən maliyyələşdirilən "Minilliyin inkişaf məqsədlərinin monitorinqi üçün statistik və təşkilatlararası bacarıqların gücləndirilməsi" layihəsi çərçivəsində seminar keçirilmişdir.

Seminar rəsmi statistik məlumatlarla metaməlumatların necə müəyyən edilməsi, istehsalı, idarə edilməsi və nəşr olunmasına həsr olunmuşdur. Əsas diqqət Minilliyin inkişaf məqsədlərinin (MDG) monitorinqi üçün zəruri olan göstəricilərə yönəldilmişdir. Seminar UNECE-nin MDG üçün metaməlumatlara dair yeni təlimatı, Azərbaycanda MDG-nin monitorinqi üçün istifadə olunan metaməlumatların qiymətləndirilməsi və seçilmiş milli göstəricilərə dair konkret nümunələrə dair təcrübələrin təqdimatlarından ibarət olmuşdur.



Seminarda BMT-nin Avropa İqtisadi Komissiyasının (UNECE) Statistika şöbəsinin, Dövlət Statistika Komitəsinin, İqtisadi İnkişaf, Təhsil, Ekologiya və Təbii Sərvətlər, Rabitə və informasiya nazirliklərinin, Azərbaycan Respublikasının Prezidenti yanında Strateji Araşdırmalar Mərkəzinin nümayəndələri iştirak etmişlər.

Tədbiri giriş sözü ilə açan Dövlət Statistika Komitəsinin sədri Arif Vəliyev iştirakçıları salamlamış, seminarın gündəliyinə daxil edilmiş məsələlərin aktuallığını qeyd etmiş və hər kəsi müzakirələrdə daha fəal olmağa çağırmışdır.



BMT-nin Avropa İqtisadi Komissiyasının (UNECE) Statistika şöbəsinin mütəxəssisi xanım Jessica Gardner BMTAİK-in yeni təlimatı olan "Minilliyin inkişaf məqsədləri və digər göstəricilər üçün metaməlumatlara dair təlimat"ına dair geniş təqdimatla çıxış etmişdir.

Daha sonra çıxış edən cənab Taeke Gjaltema "İnkişafı izləmək üçün metaməlumatların müəyyənləşdirilməsi" mövzusu üzrə ətraflı məlumat vermişdir.



Seminarda çıxış edən Dövlət Statistika Komitəsinin Keyfiyyətin idarə olunması və informasiya texnologiyaları şöbəsinin müdiri Qasım Əliyev 2009-cu ildən başlayaraq bu günədək hər il mütəmadi olaraq Azərbaycan Respublikasının "Minilliyin İnkişaf Məqsədləri" göstəriciləri üzrə məlumatların Komitəmizin rəsmi internet səhifəsində respublika və onun iqtisadi rayonları üzrə yerləşdirilməsi barədə məlumat vermişdir.

İştirakçılar əsasən məlumatların toplanmasından nəşrə qədər olan bütün mərhələlərdə bütün metaməlumatların müəyyən edilməsi, bəzi nəşrlərdə məlumatları müşayət edən metaməlumatların seçilməsi və nəşr olunması mövzuları barədə görüləcək gələcək işləri müzakirə etmişlər.











